AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

8 SENTYABR 2024-cü il BAZAR № 195 (7953) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

# Zamanla yüksələn və güclənən tərəfdaşlıq




***Azərbaycan Prezidentinin sentyabrın 4-də İtaliyaya işgüzar səfəri iki ölkə arasında dərin əməkdaşlığın təcəssümüdür. Enerji resurslarının şaxələndirilməsi həm İtaliya və Azərbaycan, həm də bütün Avropa qitəsi üçün iqtisadi və elmi əməkdaşlığın sütunlarını ehtiva edir. Enerji, mədəniyyət, infrastruktur, həmçinin kənd təsərrüfatı sahələri ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi üçün mühüm imkanlar yaradır.***

## *Dövlət başçımızın İtaliyaya işgüzar səfəri qeyri-neft sektorunda da əməkdaşlığın genişlənməsinə stimul verəcək*

Bakı Qafqaza və Mərkəzi Asiyaya açılan mühüm qapıdır və bu geosiyasi faktor İtaliya siyasəti üçün mühüm əhəmiyyət kəsb edir. Avropa ölkələri ilə əlaqələr Azərbaycanın da xarici siyasətində xüsusi yer tutur. Bu kontekstdə İtaliya ilə əməkdaşlığı vurğulamaq vacibdir, çünki bu il hər iki ölkə üçün əlamətdardır. Belə ki, İtaliya G7-nin, Azərbaycan isə COP29-un sədridir. Bununla yanaşı, onu da qeyd edək ki, İtaliya Azərbaycanla strateji tərəfdaşlıq sənədini imzalayan 9 Avropa İttifaqı üzvündən biridir.

Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri iki ölkə arasındakı münasibətlərin inkişafı və strateji əməkdaşlığın gücləndirilməsi baxımından kifayət qədər əhəmiyyətlidir. Bu səfərdən sonra ölkələr arasında qeyri-neft sektorunda da əməkdaşlığın güclənməsi gözlənilir. İtaliya investisiyasının Azərbaycanın qeyri-neft sektoruna və eləcə də işğaldan azad olunan ərazilərimizə cəlb edilməsi də prioritetdir. Bu baxımdan, dövlət başçımızın İtaliyaya səfəri iki ölkə arasındakı əməkdaşlıqda yeni mərhələnin əsasını qoyacaq.

Azərbaycan İtaliya ilə bir çox sahələri əhatə edən və strateji tərəfdaşlığa çevrilmiş tarixi ikitərəfli əlaqələrə malikdir. İki ölkə arasında siyasi dialoqun yüksək keyfiyyəti zəngin iqtisadi və ticari əməkdaşlıq əlaqələri ilə möhkəmlənmişdir. Uzun tarixə malik olan ikitərəfli əlaqələr bu gün strateji səviyyəyə yüksəlib və bu münasibətlər gələcəkdə yeni perspektivlər vəd edir. İqtisadi əlaqələrin möhkəm təməli davamlı tərəfdaşlıq üçün geniş yol açır.

Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il fevralın 20-də İtaliya Respublikasına dövlət səfəri iki ölkə arasında münasibətlərin inkişafı baxımından tarixi hadisə hesab olunur. Səfər çərçivəsində bir çox mühüm sənədlər mübadilə edilib. Bunlardan ən əsası "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"dir. Birgə Bəyannamə qarşıdakı illərdə siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə sıx əməkdaşlığı əhatə edən vacib sənəd hesab olunur.

(davamı 3-cü səhifədə)

(əvvəli 1-ci səhifədə)

Sənəd ölkələr arasında strateji tərəfdaşlığın gələcək istiqamətlərini müəyyən edir, ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Bəyannamədə beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə dəstək göstərilməsi haqqında müddəanın nəzərdə tutulması İtaliya və Azərbaycanın yaxın, dost, müttəfiq ölkələr olduğunu göstərir.

2022-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Çernobbio şəhərində İtaliyanın "Il Sole 24 Ore" qəzetinin müxbiri Roberto Buondjorno ilə müsahibəsində bildirib ki, İtaliya şirkətləri işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərirlər. "İtaliya şirkətləri tərəfindən həyata keçirilən işlər miqyasına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir. Türkiyə şirkətləri birinci yerdədir və bu təbiidir, çünki Türkiyə bizim müttəfiqimiz, yaxın dostumuz və qonşumuzdur. Onların tanınmış tikinti şirkətləri var. İkinci yerdə isə İtaliya şirkətləri qərarlaşır". Bundan əlavə, İtaliya şirkətləri işğaldan azad edilmiş dörd rayonda - Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə yerləşən elektrik stansiyalarını avadanlıqlarla təmin edib. İtaliyalı memarlar Şuşada tarixi abidələrin və məscidlərin bərpasına da dəvət olunublar. Həmçinin İtaliya şirkəti Bakıda Zəfər muzeyinin inşasında iştirak edib. Hazırda İtaliya şirkətlərinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yenidənqurma layihələrinə cəlb olunması möhkəm iqtisadi əlaqələrin göstəricisidir və bu tərəfdaşlığın daha da genişləndirilməsi üçün potensial imkanlar mövcuddur. Xüsusilə kənd təsərrüfatı, maşınqayırma, irriqasiya sahələrində İtaliyanın qabaqcıl təcrübəsinin öyrənilməsi və bu istiqamətdə tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır.

İtaliya ilə münasibətlərin inkişaf dinamikası olduqca yüksəkdir və ölkələrimiz arasında müxtəlif sahələr üzrə əməkdaşlıq əlaqələri daim genişlənir. Ticarət əməkdaşlığı iqtisadi münasibətlərin əsas istiqamətlərindəndir. Qarşılıqlı ticarət dövriyyəsi 6 milyard ABŞ dollarından çox olmaqla hazırda İtaliya ölkəmizin əsas ticarət tərəfdaşlarından biridir. Müstəqillik illərində İtaliyanın Azərbaycan iqtisadiyyatına 770 milyon ABŞ dollarından çox, Azərbaycanın isə İtaliyaya 1,7 milyard ABŞ dolları həcmində investisiya yatırması uğurlu əməkdaşlığın göstəricisidir. Ölkələrimiz arasında iqtisadi əlaqələr əsasən neft-qaz və enerji sektorunu əhatə etsə də, son illərdə qeyri-neft sektoru üzrə də ciddi əməkdaşlıq əlaqələri qurulub. Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət sektorlarında İtaliyanın 114 şirkəti fəaliyyət göstərir. İtaliya şirkətləri, həmçinin ölkəmizin neft-qaz sektorunda dəyəri 9,9 milyard dollar olan 277, qeyri-neft sektorunda isə dəyəri 708 milyard dollar olan 37 layihədə podratçı kimi iştirak edirlər.

İqtisadi əməkdaşlıq çərçivəsində Azərbaycan neftinin böyük bir hissəsi məhz İtaliya bazarlarına çatdırılır. TAP layihəsinin reallaşdırılması Azərbaycan-İtaliya əməkdaşlığının birgə uğurudur. İki ildən artıqdır ki, Azərbaycan qazı İtaliya bazarına çatdırılır və oradan Avropaya nəql edilir. Cənub Qaz Dəhlizinin İtaliyayadək uzanan yolu boyunca bir neçə ölkə Azərbaycan qazından faydalanır. Çox mühüm strateji önəm daşıyan bu layihənin reallaşdırılması nəticəsində ölkəmiz Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu çox mühüm bir bazar, Avropa isə Rusiyadan kənar enerji mənbəyi əldə edib. Bu baxımdan, Azərbaycan-İtaliya strateji tərəfdaşlığı təkcə iki ölkənin deyil, daha geniş coğrafiyanın maraqlarını ifadə edir. Hazırda bu layihə Avropanın 10 ölkəsinin enerji təchizatında vacib rol oynayır.

Prezident İlham Əliyev İtaliyaya budəfəki işgüzar səfəri çərçivəsində qeyd edib ki, COP29-un Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə olan yekdil dəstəyinin ifadəsi, eyni zamanda ölkəmizə olan etimadın göstəricisidir. Dövlət başçısı COP29 çərçivəsində beynəlxalq iqlim dəyişmələri məsələlərində Azərbaycanın İtaliya ilə birgə əməkdaşlığa hazır olduğunu bildirib. İtaliya Prezidenti COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıraraq bunun çox əhəmiyyətli tədbir olduğunu deyib və ölkəsinin COP29-da yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirib.

**Mustafa KAMAL,**
**"Respublika".**